Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
İqtisadiyyat İnstitutu

*Leyli Əli qızı Allahverdiyeva*

# AZƏRBAYCANDA TURİZM:

## SON İLLƏRİN DİNAMİKASI

***Bülleten-2023***

***Bakı-2024***

Müəllif:  i.e.d., dos. Leyli Əli qızı Allahverdiyeva

Rəyçilər: i.e.d., prof. Tərbiz Nəsib oğlu Əliyev

i.f.d., dos. Pərviz Səməd oğlu Həsənov

Elmi redaktor:  i.e.d., prof. Nazim Müzəffərli (İmanov)

Seriya üçün məsul şəxs: i.f.d., dos. Təbriz Abdulla oğlu Yadigarov

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu Elmi Şurasının 30 noyabr 2023-cü il tarixli iclasının qərarı ilə çapa tövsiyə olunmuşdur.**

Bakı-“Elm və Bilik” PZ.-2024, 44 səh.

“Azərbaycanda turizm: son illərin dinamikası” Bülleteni-2023 Azərbaycanda son illər ərzində turizm sahəsində baş verən dəyişikliklərin, əldə edilmiş nailiyyətlərin və mövcud inkişaf imkanlarının ümumi analitik icmalıdır. Ölkəmizdə turizm sahəsinin rəqabətqabiliyyətliliyini müqayisəli şəkildə təhlil etmək məqsədilə bülletendə AR Dövlət Statistika Komitəsinin (AR DSK) məlumatları ilə yanaşı, beynəlxalq qurumların statistik bazalarına da müraciət olunmuşdur. Bülletendə istinadı göstərilməyən bütün statistik məlumatların, o cümlədən qrafik və diaqramların, mənbəyi AR DSK-dır.

Dünyanın müxtəlif ölkələrində turizmin rəqabətqabiliyyətliliyini ölçən indekslərin həmin ölkələrin iqtisadi inkişaf səviyyələrinə təsirinin təhlili müəyyən mülahizələr irəli sürməyə imkan vermişdir.

Bülleten turizm iqtisadiyyatı ilə məşğul olan mütəxəssislər və turizm biznesi ilə maraqlanan oxucular üçün nəzərdə tutulmuşdur.

İSBN – 9 7 8 - 9 9 5 2 - 5 4 9 - 20 - 1

© “Elm və Bilik” P.Z.-2024

# Mündəricat

Qısa təsvir....................................................................................................................4

Azərbaycanda turizmin ümumi inkişaf meyilləri.............................................................................7

Daxili və gəlmə turizm...................................................................................................15

Azərbaycanda ən çox inkişaf edən turizm növləri.........................................................................20

Getmə turizm.....................................................................................................................22

Turizmin iqtisadiyyata töhfəsi........................................................................................25

Rəqabətqabiliyyətlilik və xarici turistlərdən gəlir: ölkələrarası müqayisə...................................28

Analitik ümumiləşdirmə..................................................................................................34

# QISA TƏSVİR

Manatın 2015-ci ildəki devalvasiyası nəticəsində Azərbaycan xarici turistlər üçün əlverişli məkana çevrilmişdir. Belə ki, 2019-cu ildə, 2015-ci il ilə müqayisədə, ölkəmiz 49% daha çox xarici turist qəbul etmişdir. 2019-cu ildə ölkəmizə gələn xarici turistlərin əksəriyyəti istirahət məqsədilə, işgüzar məqsədlərlə gələnlər, həmçinin qohum və dostlarını ziyarət edənlər olmuşdur.

Ümumilikdə, göstərilən dövr ərzində göstəricilərdə müsbət tendensiyanın izlənilməsinə baxmayaraq, 2020-ci ildə dünyanı bürüyən Covid-19 pandemiyası ölkəmizin turizm sahəsinə də öz ciddi mənfi təsirini göstərmişdir. Belə ki, 2020-ci ildə Azərbaycana gələn xarici turistlərin sayı, 2019-cu il ilə müqayisədə, 81,9% azalmışdır. 2021-ci ildə isə, 2020-ci ilə nisbətən, göstəricidə bir qədər də azalma (-11,1%) müşahidə olunmuş, xarici turistlərin sayı cəmi 461,7 min nəfər təşkil etmişdir.

Bununla yanaşı, Covid-19 pandemiyasının yayılmasının qarşısının alınması məqsədi ilə dünya ölkələrində görülən tədbirlər xarici ölkələrə turizm məqsədi ilə gedən Azərbaycan vətəndaşlarının sayının da 2021-ci ildə, 2019-cu ilə nisbətən, 87,2% azalmasına səbəb olmuşdur (557,9 min nəfərə qədər). Buna baxmayaraq, 2021-ci ildə Azərbaycana turizm məqsədilə gələn xarici ölkə vətəndaşlarının sayı xarici ölkələrə turizm məqsədilə gedən Azərbaycan vətəndaşlarının sayından 17,2% az olmuşdur.

Artıq 2022-ci ildə dünyada, Azərbaycan da daxil, xüsusi karantin rejiminin yumşaldılması nəticəsində, turizm göstəricilərində müsbət dinamika qeydə alınmışdır. Belə ki, ölkəmizə gələn xarici turistlərin sayı, 2021-ci ilə nisbətən, 2,3 dəfə artaraq, 1058,1 min nəfər təşkil etmişdir. Bu zaman xarici turistlərin əksəriyyəti işgüzar məqsədlə (400,5 min nəfər) və istirahət və əyləncə məqsədilə (398,5 min nəfər) ziyarət edənlər olmuşdur. Azərbaycana müalicəvi məqsədlə gələn xarici ölkə vətəndaşlarının sayı müalicə olunmaq üçün xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayına nisbətən 3,2 dəfə az olmuşdur. Xarici ölkələrə turizm məqsədi ilə gedən vətəndaşlarımızın sayında da 64,6% artım müşahidə olunmuşdur.

Onu xüsusi qeyd etmək lazımdır ki, 2022-ci ildə, 2010-cu ildən ilk dəfə olaraq, ölkəmizə gələn xarici turistlərin sayı turizm məqsədi ilə xarici ölkələrə gedən azərbaycanlıların sayından çox olmuşdur (15,2% çox).

Dünya Bankının göstəricilərinə əsasən, 2019-cu ildə Türkiyədə və Rusiyada xarici səyahətlərin ümumi sayının Azərbaycana nisbətən daha çox olmasına baxmayaraq, orada hər 100 nəfərə düşən xarici səyahətlərin sayı ölkəmizdəkindən, müvafiq olaraq, 5 dəfə və 1,8 dəfə az olmuşdur.

Göstəricilərin bir il ərzində (2021-ci ilə nisbətən), müvafiq olaraq, 1,7 dəfə və 14,6 dəfə artmasına baxmayaraq, 2022-ci ildə, 2019-cu ilə nisbətən, turizm agentliklərinin Azərbaycan vətəndaşlarına ölkəmizdə səyahət etmək üçün satdıqları turizm zərflərinin dəyəri 88,6%, xarici ölkə vətəndaşlarına Azərbaycanda səyahət etmək məqsədilə satdıqları turizm zərflərinin dəyəri isə 80,8% azalmışdır. Azalma ölkədən kənarda səyahət etmək üçün Azərbaycan vətəndaşlarına satılmış turizm zərflərinin dəyərində də müşahidə olunmuşdur (4,5 dəfə).

Ümumilikdə, 2022-ci ildə ölkənin turizm agentliklərindən əldə edilmiş turizm zərflərinin ümumi dəyəri 2019-cu il ilə müqayisədə 79,6% az olmuşdur.

Xarici turistlərin Azərbaycanda turizm məqsədilə çəkdikləri xərclər ilə xarici ölkələrə gedən ölkə vətəndaşlarımızın turizm məqsədilə çəkdikləri xərclər arasındakı fərq 2018-2021-ci illər ərzində çox da böyük olmasa da, həmin dövr ərzində Azərbaycana gələn xarici turistlərin sayı xarici ölkələrə turizm məqsədilə gedən vətəndaşlarımızın sayından olduqca az olmuşdur (xüsusilə də, 2018-ci və 2019-cu ildə – 1,5 dəfədən daha az).

2022-ci ildə xarici turistlərin Azərbaycanda turizm məqsədilə çəkdikləri xərclər xarici ölkələrə gedən ölkə vətəndaşlarımızın turizm məqsədilə çəkdikləri xərclərdən 45% çox olmuşdur. Bununla yanaşı, göstərici, 2019-cu il ilə müqayisədə, 2,2 dəfə azalmışdır.

2022-ci ildə ölkəmizdə turizm məqsədi ilə çəkilən xərc, hər bir xarici turistə hesabı ilə, 1267 manata bərabər olduğu halda, xarici ölkələrdə turizm məqsədi ilə çəkilən xərc, ora gedən hər bir turist-vətəndaşımıza hesabı ilə, 1007 manata bərabər olmuşdur.

2021-ci ildən etibarən Dünya İqtisadi Forumu tərəfindən hesablanan və Turizmin rəqabət qabiliyyəti indeksinin təkmilləşdirilmiş versiyası olan Səyahət və turizmin inkişafı indeksi üzrə reytinqdə ölkəmiz 117 ölkə arasında 63-cü pillədə qərarlaşmışdır (ölkəmizin balı yeni metodologiya ilə hesablanmış 2019-cu ilin göstəricisi ilə müqayisədə, demək olar ki, eyni olsa da, reytinqdəki yerimiz 4 pillə aşağı düşmüşdür). Göstəricimiz, İndeksin dünya ölkələri üzrə orta göstəricisindən cəmi 0,6% aşağıdır.

Dünya Turizm və Səyahət Şurasının məlumat bazasına görə, 2020-2021-ci illərdən sonra turizmin ÜDM-ə ümumi töhfəsi artsa da, göstərici, 2019-cu ilə nisbətən 29,1% aşağı olmuşdur. İlkin proqnoza əsasən, 2023-cü ilin göstəricisi də (6709,6 mln. man.) 2019-cu ilin göstəricisindən (7539,7 mln. man.) aşağı olacaqdır (-11%).

Dünya Turizm və Səyahət Şurasının məlumat bazasında göstərildiyi kimi, 2022-ci ildə ölkəmizdə turizm sahəsindəki iş yerlərinin ümumi iş yerlərinin sayındakı payı, əvvəlki ilə nisbətən, 16,2% artaraq, 7,7%-ə çatsa da, göstərici 2019-cu ilin göstəricisindən 4,6% aşağı olmuşdur. 2023-cü ilin göstəricisinin 2022-ci ilin göstəricisinə nisbətən 9,6%, 2019-cu ilə nisbətən 4,6% artacağı gözlənilir. Bu zaman turizm sahəsindəki iş yerlərinin ümumi iş yerlərinin sayındakı payının 8,3%-ə bərabər olacağı nəzərdə tutulur.

# Azərbaycanda turizmin ümumi inkişaf meyilləri

2022-ci ildə:

- ✓ *2010-cu ildən ilk dəfə olaraq, ölkəmizə gələn xarici turistlərin sayı turizm məqsədi ilə xarici ölkələrə gedən azərbaycanlıların sayından çox olmuşdur (15,2% çox).*
- ✓ *xarici turistlərin Azərbaycanda turizm məqsədilə çəkdikləri xərclər, xarici ölkələrə gedən ölkə vətəndaşlarımızın turizm məqsədilə çəkdikləri xərclərdən 45% çox olsa da, bu xərclər 2019-cu il ilə müqayisədə 2,2 dəfə azalmışdır.*
- ✓ *ölkənin turizm agentliklərindən əldə edilmiş turizm zərflərinin ümumi dəyəri 2019-cu il ilə müqayisədə 79,6% azalmışdır.*

Son illər ərzində Azərbaycan dövləti turizm sahəsinin daha da yüksək templə inkişaf etməsinə yönələn bir sıra tədbirlər həyata keçirib. Onlara ölkəmiz üçün yeni turizm növlərinin inkişaf etdirilməsi, infrastrukturun yaradılması, hüquqi bazanın təkmilləşdirilməsi, turizm müəssisələri üçün treninqlərin keçirilməsi, ölkəmizin turizm potensialının xarici ölkələrdə tanıdılması və bir sıra digər tədbirlər aiddir.

Görülən tədbirlər arasında vizanın alınması qaydalarının sadələşdirilməsi xarici turistlərin Azərbaycana cəlb edilməsində çox böyük önəm daşıyır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2016-cı ilin fevral ayında verdiyi qərara əsasən, xarici turistlərə elektron vizaların 5 gün ərzində verilməsi nəzərdə tutulmuşdursa (bundan əvvəl 10 gün ərzində)[1], 2016-cı il 1 iyun tarixli 923 saylı Fərmana əsasən “ASAN Viza” sisteminin yaradılması elektron vizaların (e-vizaların) verilməsi prosedurunu daha da sadələşdirmişdir.[2] Artıq bu gün ölkəmizi ziyarət etmək istəyən xarici ölkə vətəndaşları e-vizanı, növündən asılı olaraq, 3 iş günü ərzində və ya sürətləndirilmiş qaydada – 3 saat ərzində, birdəfəlik e-vizanın beynəlxalq hava limanlarımızda əldə edilməsi məqsədilə müraciət olunduqda isə – real vaxt rejimində əldə edə bilərlər.[3] Fəaliyyətə başladığı dövrdən 2022-ci ilin sentyabr ayına qədər həmin sistem vasitəsi ilə, ümumilikdə, 2,4 milyondan çox e-viza rəsmiləşdirilmişdir. Artıq 2022-ci ildə Füzuli hava

[1] Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu, 18 fevral 2016. http://www.president.az/articles/17828

[2] Elektron vizaların verilməsi prosedurunun sadələşdirilməsi və “ASAN Viza” sisteminin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 1 iyun 2016. https://e-qanun.az/framework/32942

[3] “ASAN Viza” sistemi haqqında Əsasnamə. http://www.e-qanun.az/framework/33948

limanında da Azərbaycana viza tələb olunan ölkələrdən gələn diplomatlara “ASAN Viza” sistemi vasitəsi ilə e-vizalar verilmişdir.[4]

Ölkəmizdə turizmin inkişaf etdirilməsinin zəruriliyi son 1-2 ildə qəbul edilən və ölkə iqtisadiyyatının inkişaf istiqamətlərini müəyyənləşdirən normativ-hüquqi sənədlərdə də öz əksini tapır. Belə ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər” çərçivəsində ölkənin sosial-iqtisadi inkişafının əsas prioritetləri müəyyənləşdirilmişdir. Dayanıqlı, rəqabətqabiliyyətli iqtisadiyyatın təmin edilməsi, rəqabətli insan kapitalının formalaşdırılması, işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təşkili, inklüzivliyin, sosial ədalətliliyin, təmiz ətraf mühitin təmin edilməsi və s. bu prioritetlər arasındadır. Dayanıqlı, rəqabətqabiliyyətli iqtisadiyyatın təmin edilməsi üçün qeyri-neft sektorunun inkişafına önəmin verilməsi xüsusi vurğulanır. İnklüzivliyin və sosial ədalətliliyin təmin edilməsi üçün regionların inkişafının sürətləndirilməsi, orada iqtisadi aktivliyin təmin edilməsinin vacibliyi, rəqabətqabiliyyətli insan kapitalının formalaşmasında sağlam həyat tərzinin təmin edilməsinin zəruriliyi qeyd olunur.[5]

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda da ölkə iqtisadiyyatının şaxələndirilməsi, qeyri-neft ixracının artırılması, işğaldan azad olunmuş ərazilərdə iqtisadiyyatın inkişaf etdirilərək ölkə iqtisadiyyatına cəlb edilməsi prioritet kimi müəyyənləşdirilmişdir.[6]

Göründüyü kimi, sadalanan bu məqsədlərə nail olunmasının bir yolu da ölkədə turizmin inkişaf etdirilməsi, sahənin rəqabətqabiliyyətliliyinin artırılmasıdır. Azərbaycanın əlverişli təbii-iqlim şəraiti, zəngin təbii resursları turizmin inkişaf etdirilməsi üçün hər zaman böyük imkanlar yaratmışdır. II Qarabağ müharibəsində çaldığımız Qələbə nəticəsində isə bu imkanlar daha da genişlənmişdir. Uzun illər ərzində işğal altında olan ölkəmizin zəngin təbii, mədəni resurslarına, böyük turizm potensialına malik olan ərazilərimiz artıq turizm məqsədi ilə istifadə oluna bilər. Belə ki, bu gün böyük sayda həm xarici, həm yerli vətəndaşlar bu əraziləri böyük həvəslə ziyarət

---

[4] Füzuli hava limanında ilk dəfə “ASAN Viza” sistemi vasitəsilə vizalar rəsmiləşdirilib. https://www.e-gov.az/az/news/read/862

[5] “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli prioritetlər”, 2 fevral 2021. https://president.az/az/articles/view/50474

[6] “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”, 22 iyul, 2022. https://e-qanun.az/framework/50013

edirlər. Qarabağda müvafiq infrastrukturun yaradılması nəticəsində turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi və turist axınının artırılması gözlənilir.

Həmin ərazilərin ölkə iqtisadiyyatına yenidən cəlb edilməsi istiqamətində müxtəlif turizm növlərinin inkişafının dəstəklənməsi Azərbaycan Respublikası Prezidentinin 16 noyabr 2022-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda vəzifələrdən biri kimi müəyyən edilmişdir.[7]

Dövlətin birbaşa turizm sahəsinin inkişafına yönəltdiyi tədbirlərə baxmayaraq, turizm göstəricilərinə bir sıra iqtisadi proseslər təsir edir. Məsələn, manatın devalvasiyası (2016-2019-cu illərin göstəricilərinə), Covid-19 pandemiyası (2020-2022-ci illərin göstəricilərinə) ölkəmizin turizm sahəsinə öz ciddi təsirlərini göstərmişdir. Belə ki, 2015-ci ildə manatın dollara nisbətən ucuzlaşması, ilk növbədə, xarici səyahətlərin dəyərinin bahalaşmasına (manat ifadəsində) gətirib çıxarmışdır. Əslində, qiymətlərin artması nəticəsində səyahətlərin istiqamətində dəyişikliklər baş verə bilər – yerli əhali xarici ölkələrə getmək əvəzinə ölkə ərazisində istirahət etməyə üz tuta bilər. Lakin manatın devalvasiyası ölkədə turizm xidmətlərinin də bahalaşmasına səbəb olmuşdur (məlumdur ki, ölkəmizdə istifadə olunan məhsulların böyük bir qismi idxal olunan məhsullardır). Bu isə, öz növbəsində, ölkə rezidentlərini ölkə ərazisində səyahət etməkdən belə imtina etməyə sövq edə bilər – nəzərə alsaq ki, həmin müddət ərzində (2016-cı və 2017-ci illər) ölkə əhalisinin real gəlirləri azalmışdır. Bu azalma *Diaqram 1*-də əks olunub.

*Diaqram 1. Azərbaycanda əhalinin real gəlirlərinin və əhaliyə göstərilən ödənişli xidmətlərin fiziki həcm indekslərinin dinamikası (əvvəlki ilə nisbətən, %)*




[7] "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı", 16 noyabr 2022. https://e-qanun.az/framework/52757

Belə ki, həm 2016-cı, həm də 2017-ci ildə əhalinin real gəlirlərinin azaldığını (müvafiq olaraq, -3,3% və -4,1%, əvvəlki ilə nisbətən) görmək olur. Bununla yanaşı, bu illərdə əhaliyə göstərilən ödənişli xidmətlərin fiziki həcm indekslərinin cüzi dəyişilməsi qeydə alınmışdır (müvafiq olaraq, -1,1% və +1,2%). Deməli, devalvasiyadan sonrakı ilk iki ildə əhalinin maddi vəziyyətinin zəifləməsi ödənişli xidmətlərin istehlakına bir o qədər də təsir etməmişdir.

Artıq 2018-ci ildə, 2017-ci ilə nisbətən, həm əhalinin real gəlirlərində (+6,7%), həm də əhaliyə göstərilən ödənişli xidmətlərin həcmində (+3%) artım müşahidə olunmuşdur. Hər iki göstəricinin artması 2019-cu ildə də qeydə alınmışdır (müvafiq olaraq, +4,7% və +3,1%).

Lakin 2019-cu ildə dünyanı bürüyən Covid-19 pandemiyası iqtisadi göstəricilərə öz mənfi təsirini göstərmişdir. Belə ki, 2020-ci ildə, 2019-ci ilə nisbətən, əhalinin real gəlirlərində 4,5% azalma qeydə alınmışdır. Həmin müddət ərzində əhaliyə göstərilən ödənişli xidmətlərin həcmində ciddi azalma (-27,9%) baş vermişdir. Bu azalmanın əsas səbəbi məhz xüsusi karantin rejiminin tətbiq edilməsi olub. Artıq 2021-ci ildə, əvvəlki ilə nisbətən, sərt məhdudiyyətlərin nisbətən yumşaldılması nəticəsində, əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi 4,8% artmışdır (bu zaman real gəlirlər 3,8% azalmışdır). 2022-ci ildə isə hər iki göstəricidə artım müşahidə olunmuşdur (müvafiq olaraq, +8% və +5,8%).

Azərbaycanda turizm sahəsindəki dəyişiklikləri təhlil etmək üçün, ilk növbədə, ölkəmizə gələn və Azərbaycandan xarici ölkələrə gedən turistlərin sayına nəzər salaq. *(Diaqram 2)*

*Diaqram 2. Azərbaycana gələn və ölkədən gedən turistlərin sayı, min nəfər, illər üzrə*



Statistik məlumatlar onu göstərir ki, 2017-ci ildə ölkə əhalisinin real gəlirlərinin azalması və devalvasiyadan sonra idxal olunan turizm xidmətlərinin bahalaşması (2016-cı ildə təsiri olmasa da) nəticəsində xarici ölkələrə turizm məqsədilə gedən Azərbaycan vətəndaşlarının sayı 3447,4 min nəfərə bərabər olmuşdur ki, bu, 2016-cı ilə nisbətən 4% azdır. Artıq 2018-ci ildən etibarən göstərici artmağa başlamış və 2019-cu ildə xarici ölkələrə turizm məqsədilə gedən Azərbaycan vətəndaşlarının sayı 4347,3 min nəfərə çatmışdır. Bu, 2015-ci ilin göstəricisi ilə müqayisədə 33,5% çoxdur.

Devalvasiyanın turizmə olan təsirinə başqa bir prizmadan yanaşdıqda, demək olar ki, ölkəmiz xarici turistlər üçün əlverişli turizm xidmətlərini göstərən bir ölkəyə çevrilmişdir (o da qeyd edilməlidir ki, 2015-ci ildə xarici turist axını 2014-cü ilə nisbətən az idi, və bu zaman müşahidə olunmuş azalma bir sıra məlum səbəblərdən irəli gəlirdi ki, onlara həmin dövrdə dünya ölkələrində insanların maddi durumunda yaranan problemlər, Rusiyadakı siyasi-iqtisadi vəziyyət, dünyada terror təhlükəsinin artması və s. aiddir). Belə ki, 2017-ci ildə ölkəmizi 2454,0 min xarici turist ziyarət etmişdir ki, bu da 2016-ci ilə nisbətən 20% çox olmuşdur. 2015-ci il ilə müqayisə etsək, ölkəmiz 2017-ci ildə 27,7%, 2018-ci ildə 35,6%, 2019-cu ildə isə 49% daha çox xarici turist qəbul etmişdir.

Ümumilikdə, göstərilən dövr ərzində göstəricilərdə müsbət tendensiyanın izlənilməsinə baxmayaraq, dünyada yayılan Covid-19 pandemiyası səbəbindən 2020-ci ildə (2019-cu ilə nisbətən) Azərbaycana gələn xarici turistlərin sayı 81,9% azalmışdır. 2021-ci ildə isə, 2020-ci ilə nisbətən, göstəricidə bir qədər də azalma (-11,1%) müşahidə olunmuş, xarici turistlərin sayı cəmi 461,7 min nəfər təşkil etmişdir.

Bununla yanaşı, Covid-19 pandemiyasının yayılmasının qarşısının alınması məqsədi ilə dünya ölkələrində görülən tədbirlər xarici ölkələrə turizm məqsədi ilə gedən Azərbaycan vətəndaşlarının sayının da 2021-ci ildə, 2019-cu ilə nisbətən, 87,2% azalmasına (557,9 min nəfərə qədər) səbəb olmuşdur. Qeyd olunmalıdır ki, 2021-ci ildə Azərbaycana turizm məqsədilə gələn xarici ölkə vətəndaşlarının (əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin) sayı xarici ölkələrə turizm məqsədilə gedən Azərbaycan vətəndaşlarının sayından 17,2% az olmuşdur.

Artıq 2022-ci ildə, dünyada, Azərbaycan da daxil, xüsusi karantin rejiminin yumşaldılması nəticəsində, turizm göstəricilərində müsbət dinamika qeydə alınmışdır. Belə ki, ölkəmizə gələn xarici turistlərin sayı, 2021-ci ilə nisbətən, 2,3 dəfə artaraq, 1058,1 min nəfər təşkil etmişdir. Xarici ölkələrə turizm məqsədi ilə gedən vətəndaşlarımızın sayında da 64,6% artım müşahidə

olunmuşdur. Onu xüsusi qeyd etmək lazımdır ki, 2022-ci ildə, 2010-cu ildən ilk dəfə olaraq, ölkəmizə gələn xarici turistlərin sayı turizm məqsədi ilə xarici ölkələrə gedən azərbaycanlıların sayından çox olmuşdur (15,2% çox).

Xarici turistlərin Azərbaycanda turizm məqsədilə çəkdikləri və xarici ölkələrə gedən ölkə vətəndaşlarımızın turizm məqsədilə çəkdikləri xərclərə nəzər salaq. *(Diaqram 3)*

*Diaqram 3. Xarici turistlərin Azərbaycanda və ölkə vətəndaşlarımızın xarici ölkələrdə turizm məqsədi ilə çəkdikləri xərclər, mln. man., 2018-2022-ci illər*




2022-ci ildə xarici turistlərin Azərbaycanda turizm məqsədilə çəkdikləri xərclər, xarici ölkələrə gedən ölkə vətəndaşlarımızın turizm məqsədilə çəkdikləri xərclərdən 45% çox olmuşdur. Bununla yanaşı, göstərici, 2019-cu il ilə müqayisədə, 2,2 dəfə azalmışdır.

Onu da qeyd etmək lazımdır ki, xarici turistlərin Azərbaycanda turizm məqsədilə çəkdikləri xərclər ilə xarici ölkələrə gedən ölkə vətəndaşlarımızın turizm məqsədilə çəkdikləri xərclər arasındakı fərq 2018-2021-ci illər ərzində çox da böyük olmasa da, həmin dövr ərzində Azərbaycana gələn xarici turistlərin sayı xarici ölkələrə turizm məqsədilə gedən vətəndaşlarımızın sayından olduqca az olmuşdur (xüsusilə də, 2018-ci və 2019-cu ildə – 1,5 dəfədən daha az).

2022-ci ildə ölkəmizdə turizm məqsədi ilə çəkilən xərc, hər bir xarici turistə hesabı ilə, 1267 manata bərabər olduğu halda, xarici ölkələrdə turizm məqsədi ilə çəkilən xərc, ora gedən hər bir turist-vətəndaşımıza hesabı ilə, 1007 manata bərabər olmuşdur.

Azərbaycanda turizm agentliklərinin fəaliyyətlərinin əsas nəticələrinə nəzər salaq. *(Diaqram 4)*

*Diaqram 4. Turizm agentlikləri tərəfindən satılmış turizm zərflərinin sayı, ədəd*




2017-ci ildə, 2016-cı ilə nisbətən, ölkəmizdə səyahət etmək üçün xarici ölkə vətəndaşlarına satılmış turizm zərflərinin sayında azalma müşahidə olunsa da (-2,4%), 2015-ci ilə nisbətən, onların sayı 3,4 dəfədən çox artmışdır. 2015-ci ilə nisbətən artım həm də Azərbaycan vətəndaşlarına ölkə ərazisində səyahət etmək üçün satılmış turizm zərflərinin sayında da qeydə alınmışdır (+24,6%). Bununla yanaşı, 2017-ci ildə satılmış turizm zərflərinin ümumi sayı 2016-cı ilə nisbətən 19,2% artsa da, 2015-ci ilə nisbətən onların sayı 549 ədəd az olmuşdur. Qeyd etmək lazımdır ki, 2016-cı ildə satılmış turizm zərflərinin ümumi sayında müşahidə olunan azalmanın səbəbi, Azərbaycan vətəndaşlarının 2015-ci ilə nisbətən turizm məqsədi ilə xarici ölkələrə 10,3% daha çox səyahət etmələrinə baxmayaraq, turizm agentliklərinə daha az müraciət etmələri olmuşdur (-35,9%).

Pandemiyadan əvvəlki son ildə (2019-cu il) qeyd olunan göstəricilərin artması qeydə alınmışdır. Odur ki, ölkəmizdə səyahət etmək üçün xarici ölkə vətəndaşlarına satılmış turizm zərflərinin sayı, 2017-ci il ilə müqayisədə, 73,7%, Azərbaycan vətəndaşlarına ölkə ərazisində

səyahət etmək üçün satılmış turizm zərflərinin sayı 28,2%, xarici ölkələrə səyahət etmək üçün Azərbaycan vətəndaşlarına satılmış turizm zərflərinin sayı isə 42,1% çox olmuşdur.

Covid-19 pandemiyası səbəbindən xüsusi karantin rejiminin tətbiq olunması göstəricilərə təsir edərək, 2020-ci ildə ölkəmizdə səyahət etmək üçün xarici ölkə vətəndaşlarına satılmış turizm zərflərinin sayı 771-ə, Azərbaycan vətəndaşlarına ölkə ərazisində səyahət etmək üçün satılmış turizm zərflərinin sayı 46-ya, xarici ölkələrə səyahət etmək üçün Azərbaycan vətəndaşlarına satılmış turizm zərflərinin sayı isə 4525-ə qədər enmişdir. 2021-ci ildə göstəricilərdə, müvafiq olaraq, 4 dəfəyə yaxın azalma, 43 dəfəyə və 1,7 dəfəyə yaxın artım müşahidə olunmuşdur. 2022-ci ildə də, bir il ərzində, bütün qeyd olunan göstəricilər artmışdır – müvafiq olaraq, 19,4 dəfə, 1,2 dəfə və 1,4 dəfə.

Satılmış turizm zərflərinin dəyərinə nəzər salaq. *(Diaqram 5)*

*Diaqram 5. Turizm agentlikləri tərəfindən satılmış turizm zərflərinin dəyəri, min man.*




2017-ci ildə satılmış turizm zərflərinin ümumi dəyəri 54 612,2 min manat təşkil etmişdir. Bu, 2016-cı ilə nisbətən, 63,2% çox olmuşdur. 2017-ci ildə, əvvəlki ilə nisbətən, turizm agentliklərinin Azərbaycanda səyahət etmək üçün xarici ölkə vətəndaşlarına satdıqları turizm zərflərinin dəyəri 2 dəfədən çox, 2015-ci ilə nisbətən isə 14 dəfəyə yaxın artmışdır. 2017-ci ildə satılmış turizm zərflərinin ümumi dəyərinin il ərzində artmasına, həmçinin, ölkə daxilində

səyahət etmək üçün Azərbaycan vətəndaşlarına satılmış turizm zərflərinin dəyərinin 42,6%, xarici ölkələrdə səyahət etmək üçün Azərbaycan vətəndaşlarına satılmış turizm zərflərinin dəyərinin isə 57,9% artması səbəb olmuşdur.

2018-ci və 2019-cu ildə göstəricilərdə artım müşahidə olunmuşdur. Belə ki, satılmış turizm zərflərinin ümumi dəyəri, əvvəlki ilə nisbətən, müvafiq olaraq, 21,9% və 17,4% artmışdır. 2019-cu ildəki artıma ən çox təsir edən Azərbaycan ərazisində səyahət etmək üçün xarici ölkə vətəndaşlarına satılmış turizm zərflərinin dəyərinin artması olmuşdur (+62,5%).

2020-ci ildə göstəricilər xeyli azalmışdır. 2022-ci ildə, 2021-ci ilə nisbətən, göstəricilərin, müvafiq olaraq, 1,7 dəfə və 14,6 dəfə artmasına baxmayaraq, 2019-ci ilə nisbətən, turizm agentliklərinin Azərbaycan vətəndaşlarına ölkəmizdə səyahət etmək üçün satdıqları turizm zərflərinin dəyəri 88,6%, xarici ölkə vətəndaşlarına Azərbaycanda səyahət etmək məqsədilə satdıqları turizm zərflərinin dəyəri isə 80,8% azalmışdır. Azalma ölkədən kənarda səyahət etmək üçün Azərbaycan vətəndaşlarına satılmış turizm zərflərinin dəyərində də müşahidə olunmuşdur (4,5 dəfə).

Ümumilikdə, 2022-ci ildə ölkənin turizm agentliklərindən əldə edilmiş turizm zərflərinin ümumi dəyəri 2019-cu il ilə müqayisədə 79,6% az olmuşdur.

# Daxili və gəlmə turizm

**2022-ci ildə:**

- ✓ 2021-ci ilə nisbətən ölkəmizdə səhayət etmək üçün Azərbaycan vətəndaşlarına satılmış turizm zərflərinin sayı 1,2 dəfə artsa da, 2019-cu ilin göstəricisindən 3,1 dəfə az olmuşdur.
- ✓ mehmanxana və mehmanxana tipli obyektlərdə yerləşdirilmiş şəxslərin sayında il ərzində artım müşahidə olunsa da (+44,8%), göstərici, 2019-cu il ilə müqayisədə, 11,6% az olmuşdur.

2017-ci ildə Azərbaycanda manatın ABŞ dollarına nisbətən ucuzlaşması nəticəsində turizm xidmətlərinin xaricilər üçün əlverişli olması, dünyanın digər ölkələri ilə müqayisədə daha yüksək siyasi stabillik, xaricilər üçün viza rejiminin sadələşdirilməsi xarici turist axınının (gəlmə turizmin) artmasına (+27,7%, 2015-ci ilə nisbətən) səbəb olmuşdur. Həmin müddət ərzində

xarici ölkə vətəndaşlarına satılmış turizm zərflərinin sayı 3,4 dəfədən çox, onların dəyəri isə 14 dəfəyə yaxın artmışdır.

Daxili turizmi formalaşdıran yerli əhalidir. 2017-ci ildə, 2015-ci ilə nisbətən, Azərbaycan vətəndaşlarına satılmış turizm zərflərinin sayının 24,6% artması müşahidə olunsa da, 2016-cı ilə nisbətən onların sayı, demək olar ki, eyni olmuşdur. Lakin il ərzində (2016-cı ilə nisbətən) bu cür turizm zərflərinin dəyərinin 42,6% artması qeydə alınmışdır.

2018-ci ildə, əvvəlki ilə nisbətən, ölkəmizdə səyahət etmək üçün Azərbaycan vətəndaşlarına satılmış turizm zərflərinin sayı 26,3% artsa belə, onların dəyərində də təxminən eyni artım müşahidə olunmuşdur (+24,4%). 2019-cu ildə də, 2018-ci ilə nisbətən, ölkəmizdə səyahət etmək üçün Azərbaycan vətəndaşlarına satılmış turizm zərflərinin sayı 1,5%, onların dəyəri isə 1,3% artmışdır. Təbii ki, 2020-ci ildə göstəricilərin, demək olar ki, yox səviyyəsinə enməsi qeydə alınmışdır (müvafiq olaraq, 46 ədəd və 15,8 min man.). Artıq 2021-ci ildə ölkəmizdə səyahət etmək üçün Azərbaycan vətəndaşlarına satılmış turizm zərflərinin sayı il ərzində 42,9 dəfə artmışdır. Buna baxmayaraq, bu, 2019-cu ilə nisbətən, 3,8 dəfə az olmuşdur. 2022-ci ilin göstəricisi də, həmçinin – 2021-ci ilə nisbətən 1,2 dəfə artsa da, 2019-cu ilin göstəricisindən 3,1 dəfə az olmuşdur.

2016-cı ildə Azərbaycanda mehmanxana və mehmanxana tipli obyektlərdə yerləşdirilmiş şəxslərin sayında əvvəlki ilə nisbətən 33,9% (və ya +283 923 nəfər), 2017-ci ildə isə, əvvəlki ilə nisbətən, 26,1% artım (və ya +292 640 nəfər) qeydə alınmışdır. 2016-cı ildəki artımın 99%-i (və ya 281 136 nəfər), 2017-ci ildəki artımın isə 69,9%-i (və ya 204 448 nəfər) xarici ölkə vətəndaşları hesabına əldə edilmişdir. 2018-ci ildə, əvvəlki ilə nisbətən, ölkənin mehmanxana və mehmanxana tipli obyektlərində yerləşdirilmiş şəxslərin sayı 23,7% (və ya +334 767 nəfər), 2019-cu ildə isə, yenə də əvvəlki ilə nisbətən, 9,7% (və ya +170 290 nəfər) artmışdır. Bu zaman 2018-ci ildəki artımın 75,6%-i (və ya 253 160 nəfər), 2019-cu ildəki artımın isə 48,4%-i (və ya 82 347 nəfər) xarici ölkə vətəndaşları hesabına əldə edilmişdir. 2020-ci ilin bu göstəricilərində də mənfi dinamika qeydə alınmışdır. Belə ki, mehmanxana və mehmanxana tipli obyektlərdə yerləşdirilmiş şəxslərin sayı, 2019-cu ilə nisbətən, 65,2% azalmışdır. Bu zaman il ərzində yerləşdirilmiş ölkə vətəndaşlarının sayında 33,4%, xarici ölkə vətəndaşlarının sayında isə 79,7% azalma müşahidə olunmuşdur. Artıq 2021-ci ildə yerləşdirilmiş ölkə vətəndaşlarının sayı 2,2 dəfə, xarici ölkə vətəndaşlarının sayı isə 1,6% artmışdır. 2022-ci ildə isə mehmanxana və

mehmanxana tipli obyektlərdə yerləşdirilmiş ölkə vətəndaşlarının sayı 12,3% azalmış, xarici ölkə vətəndaşlarının sayı isə, əksinə, 3,3 dəfə artmışdır. *(Cədvəl 1)*

*Cədvəl 1. Mehmanxana və mehmanxana tipli obyektlərin əsas göstəriciləri*

| | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|
| **Mehmanxana və mehmanxana tipli obyektlərin sayı, ədəd** | - | - | - | 621 | 670 | 682 | 712 | 757 |
| **Nömrələrin sayı, ədəd** | 17 953 | 20 330 | 20 778 | 22 192 | 23 865 | 24 195 | 25 445 | 27 312 |
| **Yerləşdirilmiş şəxslərin sayı, nəfər** | 838 145 | 1 122 068 | 1 414 708 | 1 749 475 | 1 919 765 | 668 813 | 1 172 123 | 1 697 358 |
| onlardan: | | | | | | | | |
| **ölkə vətəndaşları** | 342 497 | 345 284 | 433 476 | 515 083 | 603 026 | 401 430 | 900 560 | 789 405 |
| **əcnəbilər və vətəndaşlığı olmayan şəxslər** | 495 648 | 776 784 | 981 232 | 1 234 392 | 1 316 739 | 267 383 | 271 563 | 907 953 |

Ölkədə mehmanxana və mehmanxana tipli obyektlərdə yerləşdirilmiş həm ölkə vətəndaşlarının, həm də xarici ölkə vətəndaşlarının (əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin) sayının iqtisadi rayonlar üzrə necə dəyişildiyinə nəzər salaq. *(Diaqram 6, Diaqram 7)*

*Diaqram 6. Mehmanxana və mehmanxana tipli obyektlərdə yerləşdirilmiş ölkə vətəndaşlarının sayı, iqtisadi rayonlar üzrə, 2017-2022-ci illər, nəfər*



Göründüyü kimi, 2017-2022-ci illər üzrə ölkənin mehmanxana və mehmanxana tipli obyektlərində yerləşdirilmiş ölkə vətəndaşlarının əksəriyyəti Bakının mehmanxana və mehmanxana tipli obyektlərində yerləşdirilmişdirlər. Bu zaman onların maksimal sayı 2021-ci ilə təsadüf etmişdir (412 264 nəfər). Bakıdan sonra 2-ci yeri, 2020-ci il istisna olmaqla, Quba-Xaçmaz iqtisadi rayonu tutur.

*Diaqram 7. Mehmanxana və mehmanxana tipli obyektlərdə yerləşdirilmiş xarici ölkə vətəndaşlarının sayı, iqtisadi rayonlar üzrə, 2017-2022-ci illər, nəfər*




2017-2022-ci illər üzrə ölkənin mehmanxana və mehmanxana tipli obyektlərində yerləşdirilmiş xarici ölkə vətəndaşlarının əksəriyyəti də Bakının mehmanxana və mehmanxana tipli obyektlərində yerləşdirilmişdirlər. Bu zaman onların minimal sayı 2020-ci və 2021-ci illərə təsadüf edir. Bakının mehmanxana və mehmanxana tipli obyektlərində yerləşdirilmiş xarici ölkə vətəndaşlarının maksimal sayı isə 2019-cu ildə qeydə alınmışdır (1 045 435 nəfər). 2017-2019-cu illərdə göstərici üzrə Bakıdan sonra 2-ci yerdə Şəki-Zaqatala iqtisadi rayonu, 2020-2022-ci illərdə isə Quba-Xaçmaz iqtisadi rayonu dayanır.

Ölkəmizdə mehmanxana və mehmanxana tipli obyektlərin gəlirləri təhlil olunan illər ərzində, 2020-ci və 2021-ci illər istisna olmaqla, xərclərdən çox olmuşdur. *(Diaqram 8)*

*Diaqram 8. Mehmanxana və mehmanxana tipli obyektlərin gəlir və xərcləri, illər üzrə*




Xarici ölkə vətəndaşlarının Azərbaycana bəzi ölkələr üzrə axınının illər üzrə dinamikası aşağıdakı diaqramda qeyd olunubdur. *(Diaqram 9)*

*Diaqram 9. Azərbaycana xarici ölkə vətəndaşlarının (əcnəbilərin və vətəndaşlığı olmayanların) bəzi ölkələr üzrə (2022-ci ildə gələnlərin sayının 30 min nəfərdən çox olduğu ölkələr) axını, illər üzrə, nəfər*



Belə ki, ölkəmizi 2017-2019-cu illər ərzində ən çox Rusiyadan və Gürcüstandan gələnlər ziyarət etmişdir. Onların sayında həmin müddət ərzində artım müşahidə olunmuşdur. Təbiidir ki, 2020-ci ildə gələnlərin sayı xeyli azalmışdır. Buna baxmayaraq, bu ölkələrdən gələnlərin sayı, yenə də, digər araşdırılan ölkələrdən çox olmuşdur (müvafiq olaraq, 225 201 nəfər və 184 228 nəfər). 2021-ci və 2022-ci illərdə isə ölkəmizi ən çox Rusiyadan və Türkiyədən gələnlər ziyarət etmişdir (müvafiq olaraq, 258 315 nəfər və 197 907 nəfər (2021-ci il); 446 712 nəfər və 311 804 nəfər (2022-ci il)). 2022-ci ilin bu göstəriciləri 2019-cu il ilə müqayisədə, müvafiq olaraq, 52,1% və 1,5% azdır.

## Azərbaycanda ən çox inkişaf edən turizm növləri

2022-ci ildə:

- ✓ xarici turistlər ölkəmizi ən çox işgüzar məqsədlə (400,5 min nəfər) və istirahət və əyləncə məqsədilə (398,5 min nəfər) ziyarət etmişdirlər.
- ✓ ölkəmizə müalicə məqsədilə gələn xarici turistlərin sayı mümkün olan potensial səviyyədən xeyli aşağıdır (xarici turistlərin cəmi 1,3%-i).

Azərbaycana müxtəlif turizm məqsədi ilə gələn xaricilərin sayına nəzər salaq. *(Diaqram 10)*

*Diaqram 10. Müxtəlif turizm növləri üzrə Azərbaycana gələn əcnəbilərin və vətəndaşlığı olmayanların sayı, 2017-2022-ci illər, min nəfər*



Covid-19 pandemiyasından əvvəlki son ildə (2019-cu ildə), 2017-ci ilə nisbətən, ölkəmizə müxtəlif turizm məqsədilə gələn xaricilərin sayı artmışdır. Bu zaman ən çox artım istirahətə gələnlərin (+38,7%) və müalicəyə gələnlərin (+30,1%) sayında müşahidə olunmuşdur. 2020-ci ildə qeyd olunan göstəricilər xeyli azalmışdır. 2021-ci ildə də, işgüzar turizm məqsədilə gələn xaricilərin say göstəricisi istisna olmaqla (+10,8%), göstəricilərin azalması qeydə alınmışdır.

*Diaqram 11. Ölkəyə gələn xarici turistlərin müxtəlif turizm növləri üzrə bölgüsü, 2022, min nəfər və %*




2022-ci ildə xarici turistlər ölkəmizi ən çox işgüzar məqsədlə (400,5 min nəfər) və istirahət və əyləncə məqsədilə (398,5 min nəfər) ziyarət etmişdirlər. 2022-ci ildə ölkəmizə müxtəlif turizm məqsədilə gələnlərin sayı 2021-ci ilə nisbətən artsa da, həmin göstəricilər 2019-cu ilin müvafiq göstəricilərindən aşağı olmuşdur (“digər turizm növləri”ndən başqa). Odur ki, 2022-ci ildə, 2019-cu ilə nisbətən, dini məqsədlə gələnlərin sayı 86,7%, müalicə məqsədilə gələnlərin sayı 78,1%, qohum və dostlarını ziyarət edənlərin sayı 74,3%, istirahət və əyləncə məqsədilə gələnlərin sayı 65,8%, işgüzar məqsədlə gələnlərin sayı 52,9% azalmışdır. Digər turizm məqsədilə gələnlərin sayında isə 19,5% artım müşahidə olunmuşdur. Bununla yanaşı, qeyd olunmalıdır ki, ölkəmizdə müalicə turizminin inkişafı üçün potensialın olduğuna baxmayaraq, bu məqsədlə gələn xarici turistlərin sayı digər məqsədlərlə gələn xarici turistlərin sayından (dini turizm məqsədilə gələnlərin sayı istisna olmaqla) dəfələrlə azdır (cəmi 14 min nəfər). *(Diaqram 11)*

# Getmə turizm

**2022-ci ildə:**

- Azərbaycan vətəndaşlarının xarici ölkələrə turizm məqsədilə əvvəlki ilə nisbətən daha çox səfər etmələrinə baxmayaraq (+64,6%), onların sayı 2019-cu il ilə müqayisədə 4,7 dəfə az olmuşdur.
- ölkə vətəndaşlarımız xarici ölkələrə ən çox istirahət etmək məqsədilə (41%), işgüzar məqsədlə (21,3%) və qohum və dostlarını ziyarət etmək məqsədilə (16,3%) getmişdirlər.

Qeyd edildiyi kimi, 2022-ci ildə Azərbaycan vətəndaşları xarici ölkələrə turizm məqsədilə əvvəlki ilə nisbətən daha çox səfər etmişdirlər (+64,6%). Onların sayı 918,1 min nəfər təşkil etmişdir. O da xüsusi vurğulanmalıdır ki, bu, 2019-cu il ilə müqayisədə 4,7 dəfə azdır.

Ümumiyyətlə, 2022-ci ildə xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının ümumi sayında turizm məqsədilə gedənlərin payı 61,6% təşkil etmişdir.

Maraqlıdır ki, son illər ərzində, Covid-19 pandemiyası dövrünü – 2020-ci və 2021-ci illəri – nəzərə almasaq (halbuki, bu zaman da göstəricilər aşağı idi – müvafiq olaraq, 64,1% və 57,2%), göstəricinin azalması qeydə alınmışdır – 2017-ci ildə – 83,9%-ə, 2018-ci ildə – 83,5%-ə, 2019-cu ildə isə – 78,1%-ə bərabər olmuşdur.

2022-ci ildə xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının xərcləri əvvəlki ilə nisbətən 81,2% artsa da, 2019-cu ilə nisbətən 2,6 dəfə azalaraq, 924,8 mln. man. təşkil etmişdir.

Azərbaycandan və bəzi digər ölkələrdən xarici səyahətlərin illər üzrə dinamikasına nəzər salaq. *(Diaqram 12)*

*Diaqram 12. Ayrı-ayrı ölkələrdən hər 100 nəfərə düşən xarici səyahətlərin sayı*




Mənbə: Dünya Bankının məlumat bazası əsasında (http://data.worldbank.org/indicator/ST.INT.DPRT; Population, total | Data (worldbank.org))

2019-cu ildə Azərbaycanda hər 100 nəfərə 55 xarici səyahət düşmüşdür. Ən yüksək göstərici Gürcüstanda (102 xarici səyahət), ən aşağı göstərici isə Türkiyədə (11 xarici səyahət) qeydə alınmışdır. 2019-cu ildə Türkiyədə və Rusiyada xarici səyahətlərin ümumi sayının Azərbaycana nisbətən daha çox olmasına baxmayaraq, orada hər 100 nəfərə düşən xarici səyahətlərin sayı, müvafiq olaraq, 5 dəfə və 1,8 dəfə az olmuşdur.

2020-ci ildə, əvvəlki ilə nisbətən, Azərbaycanda hər 100 nəfərə düşən xarici səyahətlərin sayının azalması 78,2%, Ermənistanda – 82,1%, Türkiyədə – 72,7%, Rusiyada – 71%, İspaniyada – 72,9%, Ukraynada – 62,1% təşkil etmişdir. Gürcüstanın 2020-ci il üzrə göstəricisi mövcud deyil.

*Diaqram 13. Xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının müxtəlif turizm növləri üzrə bölgüsü, 2022, %*




Artıq qeyd edilmişdir ki, araşdırılan dövr ərzində (2010-cu ildən) 2022-ci ildə, ilk dəfə olaraq, Azərbaycana turizm məqsədilə gələn xarici ölkə vətəndaşlarının sayı xarici ölkələrə turizm məqsədilə gedən Azərbaycan vətəndaşlarının sayından çox olmuşdur (15,2% çox). Ölkə vətəndaşları xarici ölkələrə ən çox istirahət etmək məqsədilə (41%), işgüzar məqsədlə (21,3%) və qohum və dostlarını ziyarət etmək məqsədilə (16,3%) getmişdirlər. *(Diaqram 13)*

2022-ci ildə xarici ölkələrə işgüzar məqsədlə gedən Azərbaycan vətəndaşlarının sayı ölkəmizə həmin məqsədlə gələn xaricilərin sayından 2 dəfə az olmuşdur.

Ölkəmizdə müalicə turizminin inkişafı üçün zəngin təbii potensialın olmasına baxmayaraq, Azərbaycana müalicəvi məqsədlə gələn xarici ölkə vətəndaşlarının sayı müalicə olunmaq üçün xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayına nisbətən yenə də azdır (3,2 dəfə az).

# Turizmin iqtisadiyyata töhfəsi

2022-ci ildə:

- ✓ pandemiyanın tüğyan etdiyi 2020-2021-ci illərdən sonra turizmin ÜDM-ə ümumi töhfəsi artsa da, göstərici, pandemiyadan əvvəlki ilə nisbətən (2019-cu ilə nisbətən) 29,1% aşağı olmuşdur.
- ✓ turizm sahəsindəki iş yerlərinin ümumi iş yerlərinin sayındakı payı, əvvəlki ilə nisbətən, 16,2% artaraq, 7,7%-ə çatmışdır (və ya 385 000 iş yeri). Lakin bu, 2019-cu ilin göstəricisindən aşağı olmuşdur (4,6% aşağı).

İqtisadçılar turizmi inkişaf etdirməyin bir neçə səbəbini göstərirlər – turizm ətraf mühitin qorunmasına, mədəni dəyərlərin inkişafı və qorunmasına, insanların fiziki və mənəvi cəhətdən bərpa olmalarına, məşğulluğun təmin edilməsinə, həyat səviyyəsinin yaxşılaşdırılmasına, iqtisadi inkişafın təmin edilməsinə və s. səbəb olur. Bu baxımdan, ölkədə turizmin inkişaf səviyyəsi nə qədər yüksək olarsa, onun sadalanan sahələrə müsbət təsirləri də bir o qədər yüksək olar.

Dünya Turizm və Səyahət Şurası (World Travel and Tourism Council) turizm sahəsinin ÜDM-ə olan ümumi töhfəsini 3 göstərici əsasında hesablayır: birbaşa (səyahət və turizm sahəsindəki daxili istehlak (səyahət və turizmə xarici turistlərin, yerli əhalinin və dövlətin fərdi xərcləri) – turizm xidmətlərini göstərənlərin satınalmaları (idxal da daxil)), dolayı (daxili təchizat zənciri + kapital qoyuluşu + dövlətin kollektiv xərcləri – dolayı xərcləri ödəyən idxal malları) və turizmin daha geniş, multiplikativ töhfəsi (birbaşa səyahət və turizm sahəsində və təchizat zəncirində məşğul olanların iqtisadiyyatda yaratdıqları əlavə xərclər)[8].

Azərbaycanda və bir neçə ölkədə turizmin ÜDM-ə ümumi töhfəsi üzrə bəzi məlumatlar aşağıdakı cədvəldə təqdim olunub. *(Cədvəl 2)*

[8] Methodology WTTC. Oxford Economics 2020 TRAVEL & TOURISM ECONOMIC IMPACT RESEARCH, p.29. https://wttc.org/Portals/0/Documents/Reports/2020/WTTC%20Methodology%20Report%202020.pdf?ver=2021-02-25-183105-660

*Cədvəl 2. Turizmin ÜDM-ə ümumi töhfəsi, %*

| Ölkə | 2019 | 2020-ci ildəki dəyişiklik, əvvəlki ilə nisbətən | 2022 | 2022-ci ildəki dəyişiklik, əvvəlki ilə nisbətən | 2023 (proqnozlaşdırılmış göstərici) | 2023-cü ildəki dəyişiklik, əvvəlki ilə nisbətən | 2022-ci ildəki dəyişiklik, 2019-cu ilə nisbətən | 2023-cü ildəki dəyişiklik, 2019-cu ilə nisbətən |
|---|---|---|---|---|---|---|---|---|
| **Azərbaycan** | 7,9 | -64,1 | 5,3 | +71,3 | 6,4 | +25,4 | -29,1 | -11,0 |
| **Türkiyə** | 11,6 | -50,9 | 11,5 | +50,5 | 11,7 | +2 | +18,8 | +21,1 |
| **Rusiya** | 5,0 | -40,6 | 3,6 | -1,8 | 4,3 | +15,8 | -28,5 | -17,2 |
| **Gürcüstan** | 27,3 | -76,6 | 20,8 | +92,2 | 22,3 | +9,7 | -14,0 | -5,7 |
| **Ermənistan** | 12,6 | -72,9 | 12,8 | +97,2 | 12,7 | +1,9 | +9,0 | +11,1 |

Mənbə: Dünya Turizm və Səyahət Şurasının məlumat bazası əsasında (https://researchhub.wttc.org/)

Cədvəldən də göründüyü kimi, 2019-cu ildə turizmin ÜDM-ə ən böyük töhfəsi Gürcüstanda (27,3%), ən az töhfəsi isə Rusiyada (5%) müşahidə olunmuşdur. Müvafiq olaraq da, dünya ölkələrində Covid-19 pandemiyasının yayıldığı 2020-ci ildə göstəricinin ən çox azaldığı ölkə Gürcüstan (-76,6%), ən az azaldığı isə – Rusiya olmuşdur (-40,6%). Azərbaycanda 2020-ci ildə turizmin ÜDM-ə ümumi töhfəsinin 64,1% azalması qeydə alınmışdır. Artıq 2022-ci ildə göstərici 5,3%-ə bərabər olmuşdur (və ya 5348,5 mln. man.). Bu, 2021-ci ilə nisbətən 71,3% çox, 2019-cu ilə nisbətən isə 29,1% azdır. İlkin proqnoza əsasən, 2023-cü ilin göstəricisi də (6709,6 mln. man.) 2019-cu ilin göstəricisindən (7539,7 mln. man.) aşağı olacaqdır (-11%).

Onu da qeyd etmək lazımdır ki, Rusiyanın turizm sahəsindəki vəziyyətinə Rusiya-Ukrayna müharibəsi də öz ciddi təsirini göstərmişdir və göstərməkdə də davam edir. Türkiyədə pandemiyadan sonrakı turizmin ÜDM-ə ümumi töhfəsi pandemiyadan əvvəlki son ilə nisbətən (2019-cu ilə nisbətən) 18,8% çox olmuşdur, üstəlik, 2023-cü ildəki müvafiq proqnoz da müsbətdir (+21,1%).

Turizm məşğulluğun təmin edilməsinə də əhəmiyyətli dərəcədə təsir edir. Məlumdur ki, sənayedə yeni texnologiyaların tətbiqi əmək resurslarına olan tələbin azalmasına səbəb olur. Bu tendensiyanı turizm sahəsinə aid etmək olmaz, çünki turizm xidmətlərinin keyfiyyəti əhəmiyyətli dərəcədə işçilərin sayından asılıdır. Onu da xüsusilə vurğulamaq lazımdır ki, turizmin inkişafı nəinki turizm sahəsində, hətta digər sahələrdə belə yeni iş yerlərinin açılmasına səbəb olur.

2019-cu ildən başlayaraq sonrakı dövrü əhatə edən turizm sahəsindəki iş yerlərinin ümumi iş yerlərinin sayındakı pay göstəriciləri üzrə bəzi məlumatlar aşağıdakı cədvəldə təqdim olunub. *(Cədvəl 3)*

*Cədvəl 3. Turizm sahəsindəki iş yerlərinin ümumi iş yerlərinin sayında payı, %*

| Ölkə | 2019 | 2020-ci ildəki dəyişiklik, əvvəlki ilə nisbətən | 2022 | 2022-ci ildəki dəyişiklik, əvvəlki ilə nisbətən | 2023 (proqnozlaşdırılmış göstərici) | 2023-cü ildəki dəyişiklik, əvvəlki ilə nisbətən | 2022-ci ildəki dəyişiklik, 2019-cu ilə nisbətən | 2023-cü ildəki dəyişiklik, 2019-cu ilə nisbətən |
|---|---|---|---|---|---|---|---|---|
| **Azərbaycan** | 8,2 | -19,6 | 7,7 | +16,2 | 8,3 | +9,6 | -4,6 | +4,6 |
| **Türkiyə** | 9,8 | -20,0 | 10,0 | +30,5 | 10,1 | +1,0 | +11,4 | +12,5 |
| **Rusiya** | 5,6 | -8,0 | 4,4 | -17,5 | 4,8 | +7,9 | -21,1 | -14,9 |
| **Gürcüstan** | 29,4 | -40,1 | 27,2 | +21,8 | 27,9 | +3,3 | -8,3 | -5,3 |
| **Ermənistan** | 10,0 | -41,0 | 9,7 | +32,3 | 9,9 | +2,9 | -0,4 | +2,5 |

Mənbə: Dünya Turizm və Səyahət Şurasının məlumat bazası əsasında (https://researchhub.wttc.org/)

Azərbaycanda 2019-cu ildə turizm sahəsindəki iş yerlərinin ümumi iş yerlərinin sayındakı payı 8,2%-ə bərabər olmuşdur (bu, 403 500 iş yeri deməkdir). Həmin ildə ən yüksək pay göstəricisi (29,4%) Gürcüstanda izlənilmiş, minimal göstərici isə (5,6%) Rusiyada qeydə alınmışdır. 2020-ci ildə Covid-19 pandemiyası ilə əlaqədar, bütün ölkələrdə, təbii ki, göstəricidə xeyli azalma baş vermişdir. Artıq 2022-ci ildə ölkələrdə (Rusiya istisna olmaqla (bunun səbəbi də – Rusiya-Ukrayna münaqişəsidir)), Azərbaycan da daxil, 2021-ci ilə nisbətən, müsbət dinamika qeydə alınmışdır. Belə ki, 2022-ci ildə ölkəmizdə turizm sahəsindəki iş yerlərinin ümumi iş yerlərinin sayındakı payı, əvvəlki ilə nisbətən, 16,2% artaraq, 7,7%-ə çatmışdır (və ya 385 000 iş yeri). Lakin bu, 2019-cu ilin göstəricisindən yenə də aşağıdır (4,6% aşağı). Ümumiyyətlə, qeyd olunan ölkələr arasında 2022-ci ildə, pandemiyadan əvvəlki son ilə (2019-cu ilə) nisbətən, müsbət dinamika yalnız Türkiyədə qeydə alınmışdır.

Ölkəmizdə 2023-cü ilin göstəricisinin artacağı gözlənilir – həm 2022-ci ilin göstəricisinə nisbətən (+9,6%), həm də 2019-cu ilə nisbətən (+4,6%). Bu zaman turizm sahəsindəki iş yerlərinin ümumi iş yerlərinin sayındakı payının 8,3%-ə bərabər olacağı nəzərdə tutulur. Bu, turizm sahəsindəki iş yerlərinin sayının 421 900-ə çatacağı anlamına gəlir. Belə ki, 2023-cü ildə Azərbaycanın turizm sahəsindəki iş yerlərinin ümumi iş yerlərinin sayındakı payının Rusiyanın

müvafiq göstəricisindən daha yüksək, təhlil edilən digər ölkələrin göstəricilərindən isə daha aşağı olacağı gözlənilir.

# Rəqabətqabiliyyətlilik və xarici turistlərdən gəlir: ölkələrarası müqayisə

- ✓ Turizmin rəqabət qabiliyyəti indeksi ilə və Səyahət və turizmin inkişafı indeksi ilə adambaşına ÜDM arasında qarşılıqlı əlaqə mövcuddur.
- ✓ 2019-cu ildə Azərbaycanda xarici turistlərdən gəlir, hər 10 nəfərə hesabı ilə, Rusiyadakından daha çox, Rumıniyadakından, Polşadakından və digər araşdırılan ölkələrdəkindən daha az olmuşdur.
- ✓ Respublika ərazisində 2019-cu ildə hər bir xarici turistin orta hesab ilə çəkdiyi xərc 626 ABŞ dolları olmuşdur ki, bu da Macarıstanın və Rusiyanın göstəricilərindən çox, Gürcüstanın, Polşanın və digər araşdırılan ölkələrin göstəricilərindən isə az olmuşdur.

*Rəqabətqabiliyyətlilik*

Ölkədə rəqabətqabiliyyətli turizmin formalaşmasında dövlətin həmin sahəyə verdiyi önəm, prioritetlik əhəmiyyətli rol oynayır. Azərbaycanda bülletenin əvvəlində qeyd edilən dövlət proqramlarının da göstərdiyi kimi, dövlət turizm sahəsini prioritet sahələrdən biri kimi müəyyənləşdirib. Odur ki, Azərbaycan dövlətinin qarşısına qoyduğu məqsədlərdən biri – ölkədə rəqabətqabiliyyətli turizmi formalaşdırmaq və turizmin iqtisadi inkişafdakı rolunu artırmaqdır.

Ölkədə turizmin rəqabətqabiliyyətlilik səviyyəsini qiymətləndirən beynəlxalq təşkilatlar var. Belə ki, Turizmin rəqabət qabiliyyəti indeksi (TRİ) – turizmin inkişaf səviyyəsini müqayisəli şəkildə qiymətləndirmək məqsədi ilə Dünya İqtisadi Forumu tərəfindən 2019-cu ilə qədər (son hesabat 2019-cu ilə aiddir) hesablanan kompozit göstərici olub.

Artıq 2021-ci ildən etibarən Dünya İqtisadi Forumu İndeksə dəyişikliklər edib, yeni – Səyahət və turizmin inkişafı indeksini (STİİ) hesablayır. Əsas dəyişikliklər aşağıdakılardan ibarətdir: 5-ci sub-indeks (Səyahət və turizmin dayanıqlılığı) əlavə olunub; Təbii və mədəni resurslar sub-indeksi Səyahət və turizm tələbinin drayveri sub-indeksinə dəyişdirilib; alt-indekslərin sayı 14-dən 17-yə qədər artırılıb; Ekoloji dayanıqlılıq alt-indeksi Səyahət və turizm siyasəti və əlverişli şərtlər sub-indeksindən yeni, Səyahət və turizmin dayanıqlılığı sub-indeksinə

keçirilib; Mədəniyyət resursları və biznes səyahəti alt-indeksinin adı dəyişdirilərək, Mədəniyyət resursları alt-indeksi adlandırılıb; İndeksin əhatə etdiyi ümumi indikatorların sayı 90-dan 112-yə qədər artırılıb; bəzi indikatorların, üstəlik inteqral İndeksin hesablanması metodologiyası dəyişdirilib (əvvəllər İndeksin hesablanmasında sub-indekslər də nəzərə alınırdısa (İndeks sub-indekslərin, sub-indekslər isə alt-indekslərin orta göstəricisi kimi hesablanırdı), yeni metodologiyaya əsasən, İndeks 17 alt-indeksin orta göstəricisi kimi hesablanır; sub-indekslər isə yalnız təsnifatlaşdırma üçün nəzərdə tutulub. Alt-indekslərə artıq eyni çəki verilir.). Bütün qeyd olunanlara baxmayaraq, Turizmin rəqabət qabiliyyəti indeksi ilə Səyahət və turizmin inkişafı indeksi arasındakı qarşılıqlı əlaqə çox güclüdür ($R^2$=0,95).[9]

Bu, illər üzrə İndekslərin əhatə etdikləri bütün göstəriciləri ətraflı müqayisə etməyə imkan verməsə də, bir ölkədə turizmin ümumi rəqabətqabiliyyətliliyinin səviyyəsindəki dinamikası barədə bəzi mülahizələri irəli sürməyə imkan verir.

Aşağıda bir neçə ölkənin STİİ-i üzrə aldığı ballar əks olunur. *(Diaqram 14)*

*Diaqram 14. Səyahət və turizmin inkişafı indeksi və onun alt-indeksləri, təhlil qrupu ölkələri, 2021*




Mənbə: Dünya İqtisadi Forumunun məlumat bazası əsasında (https://www.weforum.org/reports/travel-and-tourism-development-index-2021/explore-the-data#report-nav)

Göründüyü kimi, Azərbaycan İnsan resursları və əmək bazarı və Yer və port infrastrukturu alt-indeksləri üzrə təhlil olunan ölkələr arasında ən yüksək bala malik olan ölkədir. Ölkəmizin

[9] The World Economic Forum. Travel and Tourism Development İndex 2021, p. 42-44. https://www3.weforum.org/docs/WEF_Travel_Tourism_Development_2021.pdf

yekun indeks üzrə aldığı balı, yeni metodologiya ilə hesablanmış 2019-cu ilin göstəricisi ilə, demək olar ki, eynidir (-0,3%) – 4 bal. Buna baxmayaraq, ölkəmizin yeri 117 ölkə arasında 59-cu pillədən 63-cü pilləyə qədər dəyişmişdir.[10] Ümumi balımızın, demək olar ki, sabit qalması ölkəmizdəki bəzi göstəricilərin aşağı düşməsi, bəzilərinin isə yuxarı qalxması ilə, reytinqdə daha aşağı pillədə qərarlaşmağımız isə bəzi ölkələrin İndeks üzrə daha yüksək bal alması ilə izah oluna bilər.

Ölkəmizdə Müdafiə və təhlükəsizlik, Beynəlxalq açıqlıq, Qiymət üzrə rəqabət qabiliyyəti, Turist xidmətləri infrastrukturu, Təbii resurslar və Qeyri-istirahət resursları alt-indeksləri üzrə ballar (müvafiq olaraq, 5; 2,9; 5,9; 2,6; 1,6 və 1,6) araşdırılan ölkələr üzrə orta göstəricilərdən (müvafiq olaraq, 5,4; 3,4; 6,1; 3,2; 2,2 və 1,9) aşağıdır. Biznes mühiti, Sağlamlıq və gigiyena, İKT hazırlığı, Mədəniyyət resursları, Ekoloji dayanıqlılıq və Sosial-iqtisadi dayanıqlılıq və şərait alt-indeksləri üzrə Azərbaycanın göstəriciləri (müvafiq olaraq, 4,8; 5,4; 5,1; 3; 4,1 və 4,7) təhlil qrupu ölkələri üzrə orta göstəricilərdən (müvafiq olaraq, 4,1; 5,2; 4,8; 2,5; 3,9 və 4,3) yüksəkdir. Səyahət və turizmin prioritetliyi, Hava nəqliyyatı infrastrukturu və Səyahət və turizm tələbatının təzyiqi və təsiri alt-indeksləri üzrə isə ölkəmizin göstəriciləri təhlil olunan ölkələr üzrə orta göstəricilər ilə eynilik təşkil edir (müvafiq olaraq, 3,8; 3 və 4,1).

*Turizmin rəqabətqabiliyyətliliyinin iqtisadi mahiyyəti*

Turizmin inkişaf səviyyəsinin ölkənin iqtisadi inkişafa təsir etdiyini Turizmin rəqabət qabiliyyəti indeksi ilə adambaşına ÜDM arasındakı reqressiya təhlili nəticəsində müəyyən etmişdik (Bax: "Turizm 2016" Bülleteni). Aşağıdakı cədvəldə illər üzrə İndeksin orta göstəricisinin inkişaf etmiş və etməkdə olan ölkələrdə iqtisadi inkişafa nə cür təsir etdiyi göstərilir. *(Cədvəl 4)*

[10] The World Economic Forum. Travel and Tourism Development İndex 2021, p.13. https://www3.weforum.org/docs/WEF_Travel_Tourism_Development_2021.pdf

*Cədvəl 4. Turizmin rəqabət qabiliyyəti indeksinin və adambaşına ÜDM-in 2013, 2015 və 2017-ci illər üzrə orta göstəriciləri arasında reqressiya təhlilinin əsas göstəriciləri*

| | |
|---|---|
| R | 0,734 |
| R-kvadrat | 0,539 |
| F-mahiyyəti | 4,26E-09 |
| Müşahidələrin sayı | 47 |

Mənbə: Dünya İqtisadi Forumunun və Dünya Bankının məlumat bazaları əsasında (https://www3.weforum.org/docs/WEF_TT_Competitiveness_Report_2013.pdf; https://www3.weforum.org/docs/TT15/WEF_Global_Travel&Tourism_Report_2015.pdf; https://www3.weforum.org/docs/WEF_TTCR_2017_web_0401.pdf; https://data.worldbank.org/indicator/NY.GDP.PCAP.PP.CD?end=2013&start=1990; https://data.worldbank.org/indicator/NY.GDP.PCAP.PP.CD?end=2015&start=1990; https://data.worldbank.org/indicator/NY.GDP.PCAP.PP.CD?end=2017&start=1990)

Göründüyü kimi, qeyd edilən göstəricilər arasında korrelyasiya əmsalı 0,734-ə bərabərdir. Bu, araşdırılan dünya ölkələri üzrə Turizmin rəqabət qabiliyyəti indeksi ilə adambaşına ÜDM arasında qarşılıqlı asılılığın kifayət qədər güclü olduğunu göstərir.

Turizmin rəqabət qabiliyyəti indeksi ilə Səyahət və turizmin inkişafı indeksi arasında güclü bağlılığın olduğunu nəzərə alaraq, ölkədə turizmin inkişafının iqtisadi inkişafa təsir etdiyini yeni İndeksdən istifadə edərək də görmək olar. *(Diaqram 15)*

*Diaqram 15. Səyahət və turizmin inkişafı indeksi ilə adambaşına ÜDM arasında asılılıq, inkişaf etmiş və etməkdə olan 64 ölkə, 2021*




Mənbə: Dünya İqtisadi Forumunun və Dünya Bankının məlumat bazaları əsasında (https://www3.weforum.org/docs/WEF_Travel_Tourism_Development_2021.pdf; https://data.worldbank.org/indicator/NY.GDP.PCAP.PP.CD?end=2022&start=1990)

Göründüyü kimi, Səyahət və turizmin inkişafı indeksi ilə iqtisadi inkişaf arasındakı əlaqə kifayət qədər güclüdür (R=0,804). Bu, o deməkdir ki, ölkədə Səyahət və turizmin inkişafı indeksinin artırılması məqsədilə görülən tədbirlər, adambaşına ÜDM-in artması ilə nəticələnə bilər.

*Xarici turistlərdən gəlir*

Ümumdünya Turizm Təşkilatının (ÜTT) məlumatına əsasən, 2019-cu ildə Azərbaycanı 2864,0 min xarici turist ziyarət etmişdir. Onlardan əldə edilən gəlir isə 1792,0 mln. ABŞ dollarına bərabər olmuşdur. Bu o deməkdir ki, Respublika ərazisində hər bir xarici turistin orta hesab ilə çəkdiyi xərc 626 ABŞ dolları olmuşdur ki, bu da Macarıstanın və Rusiyanın göstəricilərindən çox, Gürcüstanın, Polşanın və digər araşdırılan ölkələrin göstəricilərindən isə az olmuşdur. *(Diaqram 16)*

*Diaqram 16. Xarici turistlərin sayı və xarici turistlərdən gəlir, təhlil qrupu ölkələri, 2019*




Mənbə: Ümumdünya Turizm Təşkilatının məlumatına əsasən (https://static.poder360.com.br/2023/09/relatorio-Organizacao-Mundial-Turismo-ONU-2022.pdf)

Təbii ki, ölkələr üzrə 2020-ci ilin müvafiq göstəriciləri xeyli aşağı düşmüşdür. Belə ki, ÜTT-in məlumatına əsasən, ölkəmizi ziyarət edən xarici turistlərin sayı 519 min nəfər təşkil etmişdir (Gürcüstanda – 1087 min nəfər, Macarıstanda – 7418 min nəfər və s.). Bu zaman, təşkilatın qeyd etdiyi kimi, xarici turistlərdən gəlir Azərbaycanda 304 mln. ABŞ dollarına bərabər olmuşdur (Gürcüstanda – 542 mln. ABŞ dolları, Macarıstanda – 3205 mln. ABŞ dolları və s.).

*Diaqram 17. Təhlil qrupu ölkələrində xarici turistlərdən gəlir, ölkə əhalisinin hər 10 nəfərinə hesabı ilə, ABŞ doll.*




Mənbə: Ümumdünya Turizm Təşkilatının və Dünya Bankının məlumat bazaları əsasında (https://static.poder360.com.br/2023/09/relatorio-Organizacao-Mundial-Turismo-ONU-2022.pdf; https://data.worldbank.org/indicator/SP.POP.TOTL?end=2019&start=1960)

2019-cu ildə Azərbaycanda xarici turistlərdən gəlir, hər 10 nəfərə hesabı ilə, (1 788 ABŞ dolları) Rusiyadakından (759 ABŞ dolları) daha çox, Rumıniyadakından (1 846 ABŞ dolları), Polşadakından (3 689 ABŞ dolları) və digər araşdırılan ölkələrdəkindən daha az olmuşdur. *(Diaqram 17)*

# Analitik ümumiləşdirmə

## *1. Azərbaycanda turizmin ümumi inkişaf meyilləri üzrə*

Son illərdə Azərbaycan dövləti turizmi prioritet sahələrdən biri kimi seçib, onun inkişafına istiqamətlənən bir sıra tədbirləri həyata keçirmişdir. Lakin turizmin inkişafına, onun əsas göstəricilərinə, təbii olaraq, ölkədə və, ümumiyyətlə, dünyada baş verən bir sıra iqtisadi amillər və proseslər təsir edir. Bu təsirlər həm müsbət, həm mənfi ola bilər. 2015-ci ildəki manatın devalvasiyası da bu amillərdən biridir. Belə ki, 2017-ci ildə, əvvəlki il ilə müqayisədə, ölkə əhalisinin real gəlirlərinin azalması və, 2016-cı ildə təsiri olmasa da, idxal olunan turizm xidmətlərinin bahalaşması, xarici ölkələrə turizm məqsədilə gedən Azərbaycan vətəndaşlarının sayının azalmasına (-4%) səbəb olmuşdur. Artıq 2019-cu ildə isə xarici ölkələrə turizm məqsədilə gedən Azərbaycan vətəndaşlarının sayı 2015-ci ilin müvafiq göstəricisini üstələmişdir (+33,5%). Bununla yanaşı, manatın devalvasiyası nəticəsində ölkəmiz xarici turistlər üçün əlverişli məkana çevrilib, növbəti illərdə daha çox xarici turist qəbul etmişdir. Lakin 2020-ci ildə, artıq qeyd edildiyi kimi, Covid-19 pandemiyasının ölkəmizin turizm göstəricilərinə mənfi təsiri müşahidə olunmuşdur. Belə ki, 2020-ci və 2021-ci ildə Azərbaycana gələn xarici turistlərin sayı azalmışdır (əvvəlki ilə nisbətən, müvafiq olaraq, -81,9% və -11,1%). Covid-19-un yayılmasının qarşısının alınması məqsədi ilə dünya ölkələrində görülən tədbirlər 2021-ci ildə, 2019-cu ilə nisbətən, xarici ölkələrə turizm məqsədi ilə gedən Azərbaycan vətəndaşlarının sayının da azalmasına səbəb olmuşdur (-87,2%). Bununla yanaşı, 2021-ci ildə Azərbaycana turizm məqsədilə gələn xarici ölkə vətəndaşlarının sayı xarici ölkələrə turizm məqsədilə gedən Azərbaycan vətəndaşlarının sayından az olmuşdur (-17,2%). Artıq 2022-ci ildə, 2021-ci ilə nisbətən, ölkəmizə gələn xarici turistlərin sayında (2,3 dəfə) və xarici ölkələrə turizm məqsədi ilə gedən vətəndaşlarımızın sayında (+64,6%) artım müşahidə olunmuşdur. Xüsusi qeyd etmək lazımdır ki, təhlil olunan dövr ərzində (2010-cu ildən), 2022-ci ildə, ilk dəfə olaraq, ölkəmizə gələn xarici turistlərin sayı turizm məqsədi ilə xarici ölkələrə gedən azərbaycanlıların sayından çox olmuşdur (15,2% çox).

*Xərclər üzrə*

2022-ci ildə xarici turistlərin Azərbaycanda turizm məqsədilə çəkdikləri xərclər, xarici ölkələrə gedən ölkə vətəndaşlarımızın turizm məqsədilə çəkdikləri xərclərdən çox olsa da (45% daha çox), bu xərclər 2019-cu il ilə müqayisədə 2,2 dəfə azalmışdır.

Xarici turistlərin Azərbaycanda turizm məqsədilə çəkdikləri xərclər ilə xarici ölkələrə gedən ölkə vətəndaşlarımızın turizm məqsədilə 2018-2021-ci illər ərzində çəkdikləri xərclər arasındakı fərq çox da böyük olmasa da, həmin dövr ərzində Azərbaycana gələn xarici turistlərin sayı xarici ölkələrə turizm məqsədilə gedən vətəndaşlarımızın sayından olduqca az olmuşdur (xüsusilə də, 2018-ci və 2019-cu ildə (1,5 dəfədən daha az)). 2022-ci ildə ölkəmizdə turizm məqsədi ilə çəkilən xərc, hər bir xarici turistə hesabı ilə, 1267 manata bərabər olmuşdursa, xarici ölkələrdə turizm məqsədi ilə çəkilən xərc, ora gedən hər bir turist-vətəndaşımıza hesabı ilə, 1007 manata bərabər olmuşdur. Təbii ki, xarici turistlərin ölkəmizdəki çəkdikləri xərclər nə qədər çox olarsa, ölkə iqtisadiyyatı üçün bir o qədər yaxşıdır. Lakin bizim turist-vətəndaşlarımızın xaricdə çəkdikləri xərclərin nisbətən aşağı olması düşündürücüdür.

*Turizm agentliklərinin fəaliyyəti üzrə*

Devalvasiyanın baş verdiyi ilə nisbətən, 2017-ci ildə turizm agentliklərinin ölkəmizdə səyahət etmək üçün Azərbaycan vətəndaşlarına və xarici ölkə vətəndaşlarına satdıqları turizm zərflərinin sayı artmışdır (müvafiq olaraq, 24,6% və 3,4 dəfədən çox). Pandemiyadan əvvəlki son ildə (2019-cu il), 2017-ci il ilə müqayisədə, qeyd olunan göstəricilərin yenə də artması qeydə alınmışdır (müvafiq olaraq, +28,2% və +73,7%). Xarici ölkələrə səyahət etmək üçün Azərbaycan vətəndaşlarına satılmış turizm zərflərinin sayı da 42,1% çox olmuşdur. Covid-19 pandemiyası səbəbindən xüsusi karantin rejiminin tətbiq olunması 2020-ci ilin müvafiq göstəricilərinin aşağı düşməsinə səbəb olmuşdur. 2021-ci ildə ölkəmizdə səyahət etmək üçün xarici ölkə vətəndaşlarına satılmış turizm zərflərinin sayında 4 dəfəyə yaxın azalma qeydə alınmışdır. Artıq 2022-ci ildə, əvvəlki ilə nisbətən, ölkəmizdə səyahət etmək üçün xarici ölkə vətəndaşlarına, Azərbaycan vətəndaşlarına və xarici ölkələrə səyahət etmək üçün Azərbaycan vətəndaşlarına satılmış turizm zərflərinin sayı artmışdır – müvafiq olaraq, 19,4 dəfə, 1,2 dəfə və 1,4 dəfə.

Satılmış turizm zərflərinin dəyərinə gəldikdə, 2017-ci ildə turizm agentliklərindən əldə edilmiş turizm zərflərinin ümumi dəyəri 2016-cı il ilə müqayisədə çox olmuşdur (63,2% daha çox). 2018-ci və 2019-cu ildə satılmış turizm zərflərinin ümumi dəyəri, əvvəlki ilə nisbətən, artmışdır (müvafiq olaraq, +21,9% və +17,4%). 2019-cu ildəki artıma ən çox təsir edən

Azərbaycan ərazisində səyahət etmək üçün xarici ölkə vətəndaşlarına satılmış turizm zərflərinin dəyərinin artması (+62,5%) olmuşdur. 2020-ci ildə göstəricilər xeyli azalmışdır.

2022-ci ildə, 2021-ci ilə nisbətən, turizm agentliklərinin Azərbaycan vətəndaşlarına ölkəmizdə səyahət etmək üçün satdıqları turizm zərflərinin dəyərinin və xarici ölkə vətəndaşlarına Azərbaycanda səyahət etmək məqsədilə satdıqları turizm zərflərinin dəyərinin, müvafiq olaraq, 1,7 dəfə və 14,6 dəfə artmasına baxmayaraq, göstəricilər, 2019-cu ilə nisbətən, azalmışdır (müvafiq olaraq, birinci göstərici -88,6%, ikinci göstərici isə -80,8%). Azalma ölkədən kənarda səyahət etmək üçün Azərbaycan vətəndaşlarına satılmış turizm zərflərinin dəyərində də müşahidə olunmuşdur (4,5 dəfə). Bu azalma, təbii ki, Covid-19 pandemiyası ilə əlaqəlidir. Ümumilikdə, 2022-ci ildə ölkənin turizm agentliklərindən əldə edilmiş turizm zərflərinin ümumi dəyəri 2019-cu il ilə müqayisədə 79,6% az olmuşdur.

### *2. Daxili və gəlmə turizm üzrə*

Devalvasiyadan sonra ölkəmizin turizm agentliklərinin reallaşdırdıqları turizm zərflərinin dəyərinin müsbət dinamikası qeydə alınmışdır. Belə ki, 2017-ci ildə, əvvəlki ilə nisbətən, turagentliklər tərəfindən ölkə ərazisində istirahət etmək istəyən Azərbaycan vətəndaşlarına satılmış turizm zərflərinin sayı, demək olar ki, eyni olsa da, onların dəyəri əhəmiyyətli dərəcədə artmışdır (+42,6%). Bu artım ölkədə həmin müddət ərzində ya nisbətən bahalı xidmətləri əhatə edən turizm zərflərinə tələbin çoxalmasının, ya da turizm xidmətlərinə olan qiymətlərin qalxmasının nəticəsi ola bilər. Ümumiyyətlə, istənilən ölkədə turizm xidmətlərinə olan qiymətlərin kəskin artması sahənin inkişafına maneələr törədə bilən amillərdəndir. Üstəlik, daxili turizmin sahənin inkişafı üçün əhəmiyyətliliyini nəzərə alsaq, bölgələrimizdə turizm xidmətlərinə olan qiymətlərin münasib olmasına, bu cür xidmətlərin keyfiyyətinin isə artırılmasına önəm verilməlidir.

2018-ci və 2019-cu illərdə, əvvəlki ilə nisbətən, ölkəmizdə səyahət etmək üçün Azərbaycan vətəndaşlarına satılmış turizm zərflərinin sayı ilə onların dəyəri təxminən eyni dərəcədə artmışdır. Təbii ki, hər bir turizm zərfinin daxil etdiyi xidmətlər fərqli ola bilər, onların qiymətləri də fərqlidir. Həmin müddətdə satılmış turizm zərflərinə daxil olan xidmətlər çeşidinin çox da dəyişilmədiyini güman etsək, onların qiymətində gözəgörünən dəyişiklik müşahidə olunmamışdır. Covid-19 pandemiyasının tüğyan etdiyi 2020-ci ildə qeyd olunan göstəricilərin,

demək olar ki, yox səviyyəsinə enməsi qeydə alınmışdır (müvafiq olaraq, 46 ədəd və 15,8 min man.).

Pandemiya ilə əlaqədar tətbiq edilən xüsusi karantin rejiminin nisbətən yumşaldılmasından sonra ölkəmizin turizm agentliklərinə müraciət edənlər pandemiyadan əvvəlki dövrə nisbətən daha az olmuşdur. Odur ki, 2021-ci ildə ölkəmizdə səyahət etmək üçün Azərbaycan vətəndaşlarına satılmış turizm zərflərinin sayı il ərzində 42,9 dəfə artsa da, bu, 2019-cu ilə nisbətən, 3,8 dəfə az olmuşdur. 2022-ci ilin göstəricisi də, həmçinin – 2021-ci ilə nisbətən 1,2 dəfə artsa da, 2019-cu ilin göstəricisindən 3,1 dəfə azdır.

*Mehmanxana və mehmanxana tipli obyektlərin fəaliyyəti üzrə*

Devalvasiyadan sonrakı ilk illərdə (2019-cu ilə qədər) ölkəmizin xarici ölkə vətəndaşları üçün əlverişli bir ölkəyə çevrildiyini bir də o sübut edir ki, 2016-cı, 2017-ci və 2018-ci illərdə mehmanxana və mehmanxana tipli obyektlərdə yerləşdirilənlərin sayındakı artımın böyük hissəsi məhz xaricilər hesabına baş vermişdir. 2019-cu ildə mənzərə bir qədər dəyişmişdir – göstərici daha çox məhz yerləşdirilmiş ölkə vətəndaşlarımızın hesabına artmışdır.

2020-ci ilin bu göstəricilərində də mənfi dinamika qeydə alınmışdır (2019-cu ilə nisbətən yerləşdirilmiş şəxslərin sayı 65,2% azalmışdır). Bu zaman yerləşdirilmiş xarici ölkə vətəndaşlarının sayındakı azalma yerləşdirilmiş ölkə vətəndaşlarının sayındakı azalmadan daha çox olmuşdur (müvafiq olaraq, 2019-cu ilə nisbətən, -79,7% və -33,4%). Artıq 2021-ci ildə müsbət dinamika izlənmişdir, və bu zaman yerləşdirilmiş ölkə vətəndaşlarının sayı yerləşdirilmiş xarici ölkə vətəndaşlarının sayından daha çox artmışdır (müvafiq olaraq, +2,2 dəfə və +1,6%).

2022-ci ildə isə yerləşdirilmiş şəxslərin sayında il ərzində artım müşahidə olunsa da (+44,8%), göstərici 2019-cu il ilə müqayisədə 11,6% az olmuşdur. O da qeyd edilməlidir ki, 2022-ci ildə, əvvəlki ilə nisbətən, mehmanxana və mehmanxana tipli obyektlərdə yerləşdirilmiş ölkə vətəndaşlarının sayı 12,3% azalmış, xarici ölkə vətəndaşlarının sayı isə, əksinə, 3,3 dəfə artmışdır. Bu o deməkdir ki, xüsusi karantin rejiminin yumşaldılması nəticəsində, ölkəmizin mehmanxana və mehmanxana tipli obyektlərində, əvvəlki ilə nisbətən, daha çox xaricilər yerləşdirilmişdir. Ölkə vətəndaşlarımız isə, əksinə, mehmanxana və mehmanxana tipli obyektlərimizdən daha az istifadə etmişdilər.

2017-2022-ci illər üzrə ölkənin mehmanxana və mehmanxana tipli obyektlərində yerləşdirilmiş ölkə vətəndaşlarının əksəriyyəti Bakının mehmanxana və mehmanxana tipli

obyektlərində yerləşdirilmişdirlər. Bu zaman onların maksimal sayı 2021-ci ilə təsadüf etmişdir (412 264 nəfər) ki, bu da Covid-19 pandemiyasının mövcud olduğu dövrdə vətəndaşlarımızın ölkə daxilində istirahət etməyə üstünlük verdiklərini bir daha göstərir. Həmin illər üzrə ölkənin mehmanxana və mehmanxana tipli obyektlərində yerləşdirilmiş xarici ölkə vətəndaşlarının əksəriyyəti də Bakının mehmanxana və mehmanxana tipli obyektlərində yerləşdirilmişdirlər. Bu zaman onların maksimal sayı 2019-cu ilə, minimal sayı isə 2020-ci və 2021-ci illərə təsadüf edir ki, bu da Covid-19 pandemiyası ilə bağlı olmuşdur.

2017-2019-cu illərdə xarici ölkə vətəndaşları Bakıdan sonra ən çox Şəki-Zaqatala iqtisadi rayonunun, 2020-2022-ci illərdə isə Quba-Xaçmaz iqtisadi rayonunun mehmanxana və mehmanxana tipli obyektlərində yerləşdirilmişdirlər.

Ümumiyyətlə, pandemiyanın tüğyan etdiyi dövrdə Azərbaycanın mehmanxanaları və mehmanxana tipli obyektləri zərərlə işləmişdir.

Ölkəmizi 2017-2019-cu illər ərzində ən çox ziyarət edənlər Rusiyadan və Gürcüstandan gələnlər olmuşdur, və həmin müddət ərzində onların sayında artım müşahidə olunmuşdur. 2020-ci ildə onların sayında xeyli azalma qeydə alınsa da, bu ölkələrdən gələnlərin sayı, yenə də, digər araşdırılan ölkələrdən çox olmuşdur. 2021-ci və 2022-ci illərdə isə ölkəmizi ən çox ziyarət edənlər Rusiyadan və Türkiyədən gələnlər olmuşdur.

## *3. Azərbaycanda ən çox inkişaf edən turizm növləri üzrə*

Covid-19 pandemiyasından əvvəlki son ildə (2019-cu ildə), 2017-ci ilə nisbətən, ölkəmizə müxtəlif turizm məqsədilə gələn xaricilərin sayı artmışdır, və bu zaman ən çox artım istirahətə gələnlərin (+38,7%) və müalicəyə gələnlərin (+30,1%) sayında müşahidə olunmuşdur. Təbii ki, 2020-ci ildə ölkəmizə müxtəlif turizm məqsədilə gələn xaricilərin sayı xeyli azalmışdır. Azalma 2021-ci ildə də (əvvəlki ilə nisbətən) qeydə alınmışdır (işgüzar turizm məqsədilə gələn xaricilərin say göstəricisi istisna olmaqla (+10,8%)).

2022-ci ildə xarici turistlər ölkəmizi ən çox işgüzar məqsədlə (400,5 min nəfər) və istirahət və əyləncə məqsədilə (398,5 min nəfər) ziyarət etmişdirlər. Həmin ildə ölkəmizə müxtəlif turizm məqsədilə gələnlərin sayı 2021-ci ilə nisbətən artsa da, göstəricilər 2019-cu ilin müvafiq göstəricilərindən aşağı olmuşdur (“digər turizm növləri”ndən başqa). Odur ki, 2022-ci ildə, 2019-cu ilə nisbətən, azalma dini məqsədlə gələnlərin sayında (-86,7%), müalicə məqsədilə gələnlərin sayında (-78,1%), qohum və dostlarını ziyarət edənlərin sayında (-74,3%), istirahət və

əyləncə məqsədilə gələnlərin sayında (-65,8%) və işgüzar məqsədlə gələnlərin sayında (-52,9%) müşahidə olunmuşdur. Digər turizm məqsədilə gələnlərin sayında isə, əksinə, artım qeydə alınmışdır (+19,5%). O da qeyd edilməlidir ki, ölkəmizə müalicə məqsədilə gələn xarici turistlərin sayı mümkün olan potensial səviyyədən xeyli aşağıdır (xarici turistlərin cəmi 1,3%-i). Ölkəmizdə turizmin bu növünün inkişafı üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsi olduqca vacibdir.

### *4. Getmə turizm üzrə*

2022-ci ildə Azərbaycan vətəndaşlarının xarici ölkələrə turizm məqsədilə əvvəlki ilə nisbətən daha çox səfər etmələrinə baxmayaraq (+64,6%), onların sayı 2019-cu il ilə müqayisədə 4,7 dəfə az olmuşdur. Son ildə xarici ölkələrə gedən vətəndaşlarımızın ümumi sayında turizm məqsədilə gedənlərin payı da pandemiyadan əvvəlki son illər ilə (2017-2019-cu illər) müqayisədə daha az olmuşdur (üstəlik, pandemiya dövrünü nəzərə almasaq (halbuki, bu zaman da göstəricilər aşağı idi – müvafiq olaraq, 64,1% və 57,2%), göstərici ildən ilə azalmışdır). Müvafiq olaraq, xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının xərcləri 2021-ci ilə nisbətən 81,2% artsa da, 2019-cu ilə nisbətən 2,6 dəfə az olmuşdur.

Xarici səyahətlər üzrə vəziyyəti digər ölkələrlə müqayisə etsək, görə bilərik ki, 2019-cu ildə Türkiyədə və Rusiyada xarici səyahətlərin ümumi sayının Azərbaycana nisbətən daha çox olmasına baxmayaraq, orada hər 100 nəfərə düşən xarici səyahətlərin sayı, müvafiq olaraq, 5 dəfə və 1,8 dəfə az olmuşdur. 2020-ci ildə, əvvəlki ilə nisbətən, Azərbaycanda hər 100 nəfərə düşən xarici səyahətlərin sayının azalması 78,2% təşkil etmişdir ki, bu azalma Ermənistandakı azalmadan (82,1%) daha az, İspaniyadakı (72,9%), Türkiyədəki (72,7%), Rusiyadakı (71%) və Ukraynadakı (62,1%) azalmadan isə daha çox olmuşdur.

2022-ci ildə ölkə vətəndaşlarımız xarici ölkələrə ən çox istirahət etmək məqsədilə (41%), işgüzar məqsədlə (21,3%) və qohum və dostlarını ziyarət etmək məqsədilə (16,3%) getmişdirlər. 2022-ci ildə xarici ölkələrə işgüzar məqsədlə gedən Azərbaycan vətəndaşlarının sayı ölkəmizə həmin məqsədlə gələn xaricilərin sayından 2 dəfə az olmuşdur.

Ölkəmizdə müalicə turizminin inkişafı üçün zəngin təbii potensialın olmasına baxmayaraq, Azərbaycana müalicəvi məqsədlə gələn xarici ölkə vətəndaşlarının sayı müalicə olunmaq üçün xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayına nisbətən yenə də azdır (3,2 dəfə az).

### *5. Turizmin iqtisadiyyata töhfəsi üzrə*

Ölkəmizdə pandemiyanın tüğyan etdiyi 2020-2021-ci illərdən sonra turizmin ÜDM-ə ümumi töhfəsi artsa da, göstərici, pandemiyadan əvvəlki ilə nisbətən (2019-cu ilə nisbətən) 29,1% aşağı olmuşdur. Üstəlik, ilkin proqnoza əsasən, 2023-cü ilin göstəricisi də (6709,6 mln. man.) 2019-cu ilin göstəricisindən (7539,7 mln. man.) aşağı olacaqdır (-11%).

2022-ci ildə ölkəmizdə turizm sahəsindəki iş yerlərinin ümumi iş yerlərinin sayındakı payı, əvvəlki ilə nisbətən, 16,2% artaraq, 7,7%-ə çatmışdır (və ya 385 000 iş yeri). Lakin bu, 2019-cu ilin göstəricisindən aşağı olmuşdur (4,6% aşağı). Ümumiyyətlə, qeyd olunan ölkələr arasında 2022-ci ildə, pandemiyadan əvvəlki son ilə (2019-cu ilə) nisbətən, müsbət dinamika yalnız Türkiyədə qeydə alınmışdır.

Ölkəmizdə 2023-cü ilin göstəricisinin artacağı gözlənilir – həm 2022-ci ilin göstəricisinə nisbətən (+9,6%), həm də 2019-cu ilə nisbətən (+4,6%). Bu zaman turizm sahəsindəki iş yerlərinin ümumi iş yerlərinin sayındakı payının 8,3%-ə bərabər olacağı nəzərdə tutulur. Bu, turizm sahəsindəki iş yerlərinin sayının 421 900-ə çatacağı anlamına gəlir.

2023-cü ildə Azərbaycanın turizm sahəsindəki iş yerlərinin ümumi iş yerlərinin sayındakı payının Rusiyanın müvafiq göstəricisindən daha yüksək, təhlil edilən digər ölkələrin göstəricilərindən isə daha aşağı olacağı gözlənilir.

### *6. Rəqabətqabiliyyətlilik və xarici turistlərdən gəlir: ölkələrarası müqayisə üzrə*

*İndeks üzrə*

2021-ci ildə Azərbaycan yeni hesablanan STİ indeksinin İnsan resursları və əmək bazarı və Yer və port infrastrukturu alt-indeksləri üzrə təhlil olunan ölkələr arasında ən yüksək bala malik olan ölkədir. Yekun İndeks üzrə aldığımız balın 2019-cu ilin göstəricisi ilə, demək olar ki, eyni olmasına baxmayaraq, ölkəmizin yeri 117 ölkə arasında 59-cu pillədən 63-cü pilləyə qədər dəyişmişdir. Ümumi balımızın, demək olar ki, sabit qalması ölkəmizdəki bəzi göstəricilərin aşağı düşməsi, bəzilərinin isə yuxarı qalxması ilə, reytinqdə daha aşağı pillədə qərarlaşmağımız isə bəzi ölkələrin İndeks üzrə daha yüksək bal alması ilə izah oluna bilər.

Turizmin rəqabət qabiliyyəti indeksi ilə və Səyahət və turizmin inkişafı indeksi ilə adambaşına ÜDM arasındakı asılılıqların təhlili onu göstərib ki, ölkədə turizmin inkişaf

etdirilməsi, onun rəqabətliliyinin artırılması iqtisadiyyatın inkişafına təsir edə bilən amillərdən biridir. Bu, ölkəmizdə turizmin inkişaf etdirilməsinə xüsusi önəmin verilməsinin vacibliyini bir daha sübut edir.

*Gəlir üzrə*

Artıq qeyd edildiyi kimi, ölkədə xarici turistlərdən əldə edilən gəlir nə qədər çox olsa, bu, turizm sahəsinin inkişaf etməsi deməkdir və ölkə iqtisadiyyatı üçün çox əhəmiyyətlidir. Belə ki, 2019-cu ildə Azərbaycanda xarici turistlərdən gəlir, hər 10 nəfərə hesabı ilə, Rusiyadakından daha çox, Rumıniyadakından, Polşadakından və digər araşdırılan ölkələrdəkindən daha az olmuşdur.

Lakin, o da qeyd edilməlidir ki, gəlirin artması xarici turistlərin sayının artması hesabına baş verməlidir, qiymətlərin artması hesabına deyil. Hər bir xarici turistin orta xərci digər ölkələrlə müqayisədə çox olsa, bu, həmin ölkədə turizm xidmətlərinin bahalığının göstəricilərindən biri ola bilər, və bu zaman, xarici turistlər turizm məqsədi ilə daha sərfəli ölkələrə üstünlük verə bilərlər.

Statistik göstəricilərə əsasən, Respublika ərazisində 2019-cu ildə hər bir xarici turistin orta hesab ilə çəkdiyi xərc 626 ABŞ dolları olmuşdur ki, bu da Macarıstanın və Rusiyanın göstəricilərindən çox, Gürcüstanın, Polşanın və digər araşdırılan ölkələrin göstəricilərindən isə az olmuşdur.

"Elm və Bilik" nəşriyyatı

Format : 60x84, $^{1}/_{16}$

Şərti çap vərəqi: 2,75

Tiraj:100